# ƏSƏDOV ƏSƏD SOLTAN OĞLU



Əsədov Əsəd Soltan oğlu 22 mart 1956-cı ildə Zəngilan rayonunun Turabad kəndində doğulmuşdur. 1975-ci ildə Mincivan qəsəbə orta məktəbini bitirdikdən sonra Sovet Ordusu sıralarına çağırılmışdır. Hərbi xidmətini başa vurduqdan sonra Saratov vilayətinin Krasnokutsk şəhərindəki Təyyarəçilik Məktəbinin mülki aviasiya şöbəsinə daxil olmuşdur. 1976-cı ildə təyyarələrin uçuş istismarı peşəsinə yiyələnərək, Yevlax Mülki Aviasiya İdarəsində öz ixtisası üzrə işləməyə başlamışdır. Erməni işğalçılarının torpaqlarımıza təcavüzü başlayanda, o da mübarizəyə qoşuldu. Yevlax Aviasiya Şirkətinə məxsus AN-2 təyyarəsinin komandiri Əsəd Əsədov Qarabağ səmasında çoxsaylı uçuşlar keçirmişdi və hər dəfə də ekstremal vəziyyətlərdə düzgün qərar qəbul edərək, düşmənin layiqli cavabını vermişdir. 29 oktyabr 1991-ci ildə AN-2 təyyarəsi Xanabad kəndi üzərindən uçarkən düşmən tərəfindən güclü atəşə tutuldu. Ə.Əsədov bu uçuş zamanı heyət üzvləri ilə birlikdə həlak oldu. Zəngilan rayonunda dəfn edilmişdir. Ailəli idi. Dörd övladı yadigar qalıb. Azərbaycan Respublikası prezidentinin 25 noyabr 1992-ci il tarixli 337 saylı fərmanı ilə Əsədov Əsəd Soltan oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. Zəngilan rayon Turabad kənd orta məktəbi və Mincivan qəsəbəsindəki mərkəzi küçələrdən biri onun adını daşıyır (Hazırda işğal altındadır).